# Multikultural cəmiyyətin formalaşdırılmasında Azərbaycanın rolu




Aprelin 27-də BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində "Multikultural cəmiyyətin formalaşdırılmasında Azərbaycanın rolu" mövzusunda bölmə iclası keçirilib.

İclasın moderatoru Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru, professor **Azad Məmmədov** dövlətimiz tərəfindən əsrlər boyu sülhlə harmoniya şəklində uzunmüddətli multietnik mədəni müxtəliflik qorunaraq saxlanılıb. Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində multikulturalizm Azərbaycanda mühüm prioritetlərdən birinə çevrilib. Multikultural cəmiyyətimiz bizim əsas üstünlüklərimizdən biridir. Biz bunları dəyərləndirir və qoruyuruq. Prezident İlham Əliyev multikultural cəmiyyət modelini yeni dəyərlərlə zənginləşdirir. Eyni zamanda, Heydər Əliyev Fondu tolerantlıq və multikulturalizm ənənələrinin davam etdirilməsində çox böyük işlər görür. Fond bu istiqamətdə uğurlu layihələr həyata keçirir. Multikulturalizmi ölkəmizin sərhədlərindən kənarda təbliğ edir.

Sosial və Siyasi Elmlər İnstitutunun Avropa Elmləri şöbəsinin müdiri **Aleksandr Nesterov** multikulturalizmin insanlar tərəfindən qavranılan dəyərlərdən ibarət bir sistem olduğunu vurğulayaraq müxtəlif ölkələrdə mədəniyyətlərin səviyyəsini müəyyənləşdirmək üçün identikliyin mühüm rol oynadığını bildirib. O, multikultural cəmiyyətin yaradılmasında ailənin, təhsilin, tolerantlığın rolunu, Azərbaycanda hökm sürən multikultural mühiti yüksək qiymətləndirib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə reallaşan yay və qış məktəblərinin avropalı tələbələr üçün böyük təcrübə olduğunu deyib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İtaliya filialının direktoru **Sandro Teti,** Drezden filialının icraçı direktoru **Birgit Veissgerber,** Lusofona Sosial Elmlər və Texnologiya Universitetinin beynəlxalq əlaqələr fakültəsinin direktoru **Teresa Damasio** çıxışlarında Azərbaycandakı multikultural ənənələri və bunların qorunması istiqamətində indiyədək görülən işlərin əhəmiyyətini xüsusi vurğulayıblar. Onlar xalqların mədəni köklərinin, multikultural dəyərlərinin qədim ədəbi-tarixi mənbələrdə axtarmaq işinə diqqət yetirilməsinin vacibliyini bildiriblər. Onlar ölkəmizdə həyata keçirilən beynəlxalq yay və qış məktəbinin fəaliyyətini yüksək qiymətləndiriblər. Bu məktəblərin əcnəbi tələbələri Azərbaycanın multikultural ənənələri ilə yaxından tanış olmaları üçün əvəzsiz fürsət olduğunu deyiblər.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri **Kamal Abdullayev** bildirib ki, bölmə iclasında iştirak edən qonaqlar Azərbaycan multikulturalizminin örnəklərini və dəyərlərini gənclərə, müxtəlif cəmiyyətlərin üzvlərinə yayan səxavətli insanlardır. Kamal Abdullayev vurğulayıb ki, Azərbaycan multikulturalistləri artıq tək deyillər. Onların yanında sədaqətli dostları toplaşır və bu cür formalaşma prosesi bizi daha da ruhlandırır.

Dövlət müşaviri multikulturalizmin hazırda Azərbaycanda dövlət siyasətinə çevrildiyini xüsusi vurğulayıb. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında həmişə multikulturalizmin Azərbaycanın çox qiymətli sərvəti olduğunu vurğulayır. Bu gün Azərbaycan multikulturalizmi yalnız ölkəmizə işləmir. O vurğulayıb ki, Azərbaycan multikulturalizmini bərpa edilmiş məscidlərimizdə, sinaqoqlarımızda, kilsələrimizdə görürük. Azərbaycan multikulturalizmi öz əhəmiyyətini Vatikan katakombalarının, Fransa muzeylərinin bərpasında, Pakistanda məktəblərin tikilməsində göstərir. Bu işdə Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrin böyük əhəmiyyəti var.

Kamal Abdullayev qeyd edib ki, Azərbaycanda məzhəb ayrılığı deyilən bir məsələ yoxdur. Bu gün Azərbaycanda vahid dövlət siyasəti var. Multikulturalizmə əsaslanan bu siyasət həm millətlərin, həm də dini icmaların problemlərini həll etməyə yönəlib.

Litvanın Təhsil Elmləri Universitetinin professoru **Vidas Kavaliauskas** əməkdaşı olduğu ali məktəbin tələbələrinin Azərbaycan multikulturalizmi ilə çox yaxından tanış olduqlarını deyib. Bildirib ki, tələbələr Azərbaycana çox böyük rəğbətlə yanaşırlar. Xalqlar, dinlər arasında ədavətin aradan qaldırılması, birgə, mehriban yaşama prinsipinin təbliği və aşılanması baxımından Azərbaycan multikulturalizmi dünya ictimaiyyətinə örnək ola biləcək səviyyədədir. Azərbaycan bir çox xalqların yaşadığı məkandır. Bura İslam, xristian, yəhudi mədəniyyətinin birgə mövcud olduğu məkandır. O, həmçinin ölkəsindəki multikultural mühit haqqında da danışıb.

Multikulturalizm cəmiyyətlərində tolerantlığın diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini bildirən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Moskva filialının icraçı direktoru **Natalia Krasovskaya** Azərbaycanın təcrübəsinin bu baxımdan örnək olduğunu deyib. Qeyd edib ki, BMT-nin qarşıya qoyduğu əsas məqsədlərə çatmaqda Azərbaycanın multikulturalizm modeli digər dövlətlər tərəfindən də tətbiq oluna bilər. Belə bir modelin digər regionlarda tətbiqi yalnız müsbət nəticələr verəcək.

İclas işini mövzu ətrafında müzakirələrlə davam etdirib.

***AZƏRTAC***